### SONUNCU ARZU

bütün arzularımı aldın əlimdən,
indi həyatın küncündə
bir səfil arzu yiyəsiz qalan bu sevgini
yorğan kimi çəkir üstünə
soyuq gecələrdə,
bir gün mən olmayanda,
sənə əziyyət, mənə xəcalət,
gələrsən məzarımın üstünə,
mənim görüşümə necə gəlmişdinsə,
eləcə geyinib gələrsən,
baxışlarını bir ovuc su kimi səpərsən
məzarıma,
əlini bir kərə çəkərsən
üstümü örtən torpağa,
deyərsən ki,
sevgi ayrılığa bir bəhanəymiş,
sən nə əvvəlincisən, nə də sonuncu,
gözün çəkilsin yollardan,
arzun həyata keçmədi,
arzun ölümə keçdi...
elə gələrsən ki, heç kim görməsin,
mən səni görəcəyəm...

### QÜRBƏT SIXINTISI...

Ayrılıq qürbətdi, Sevgi vətəndi,
Qürbətdə vətəni qoruyuram mən.
Ruhumu saxlaya bilmədim sənə,
quruca bədəni qoruyuram mən.
Dedim iki canı bir eləyək biz,
bir ömrün kirayə haqqını verək.
Bir qırıq sevincin əlindən tutub,
biz öz dərdimizi qoşa böyüdək.
Sən özün istədin bu ayrılığı,
taleyin xəbəri olmadı bizdən.
Biz artıq həyatdan doyduq, çəkildik,
Sevginin özüsə doymadı bizdən.
İndi bu ayrılıq lənət kimidi,
onu gəzdirirəm üstümdə hər gün.
Mən sənin qəlbindən ümid götürdüm,
faizi yığılır üstünə hər gün.
Mənə bu qürbəti sən bağışladın,
bu qərib qürbətin vətəni sənsən.
Ruhumu çarmıxa çəkdin, nə olar,
quru bədənimi xilas elə sən!..
***
Kölgəmi qoruyan divarlara,
keşiyimi çəkən qapılara,
ayağıma yad gələn yollara deyin ki,
insan sudur, axıb gedir,
divarları yıxıb gedir,
suyun qapısı olmur,
yolları yuyub gedir,
gedir, hopur torpağa...
suyun kölgəsi olmur,
suyun ləkəsi olur,
insanın itən yeridir su...

### 8 MARTDAN BİR GÜN SONRA...

İndi mən taleyimin uğursuz aktyoruyam,
öz rolumun sözlərini unudaraq
duruxub qalmışam həyat səhnəsində,
gecə gəzintisindən qayıdan külək
unutduğum sözləri səpələyib
şəhərin kimsəsiz küçələrinə,
dilənçilərin gözünə pul kimi görünən o sözlər
onların çoxdan unutduğu bir dilin sözləridi,
həyat bu sözləri
onların küçələrə səpələnmiş ömründə
çoxdan öldürüb...
indi onlar bədbəxtliyin faizini ödəyirlər
oturduqları səkilərə,
taleyinin sözlərini unutmuş aktyoru
fitə basır dilənçilər...
sevgisini bir çinarın kölgəsində qoyub
gəlmiş o qadın
səhər yolu keçəndə
gözünə qəzet parçasındakı bir başlıq
sataşar -
hadisə yerində xoşbəxtliyin
qətlə yetirilmiş meyiti tapılıb...
qadın donub qalar:
mən o xoşbəxtliyi tanıyırdım... - deyə
çığırar...

### DARIXMAMAQ...

Darıxmaq üçün həyat çox qısadı,
darıxmamaq üçün çox uzun,
günlə, saatla ölçülməz,
hissin maye halında çıxar canından
darıxmaq,
alışarsan darıxmamağa...
gözlərində uçular arzuların körpüsü,
sənin sevgin tarixin sinəsilə örtülər,
üzündəki sınıq təbəssüm
darıxmaq hissindən bir nişanədi,
sən darıxan adama kənardan baxıb
keçərsən,
alışarsan darıxmamağa...
darıxmaqdan açılan çiçəkləri görməzsən,
darıxmaqdan boşalan buludları
görməzsən,
darıxmaqdan çatlayan ürəkləri
görməzsən,
alışarsan darıxmamağa...

Barmaqlarımda payıza oxşayan bahar

Səndən başqa hamı yandı halıma,
yoxluğunu qınadılar, a zalım.
baxıb sənə gələn yolun qarına,
dözümümü sınadılar, a zalım.
Hanı xoşbəxtliyin çinar çətiri,
bənövşə qoxulu saçların hanı?
ətri gözlərimə dolub yandırır,
bu yiyəsiz ömrün ünvanı hanı?
Daha gözüm səni görmür, a zalım,
gərək
əlifba öyrədim barmaqlarıma.
korun barmaqları görür, a zalım,
uzaqda gözünün yağışı yağır,
göynədir çatlamış dodaqlarımı.
Üzündəki külək hayandan əsir,
qəlbinin yerini unudub bahar.
Fəsillərin yeri dəyişik düşüb,
küləyə nə var ki... eləcə əsir,
əsib soyuq-soyuq üzündən keçir,
sənin gözlərində soyuyub bahar,
sənin gözlərində soyunur bahar...
* * *
Mindiyim qatar öz içimdən keçib getdi,
yenə də məni sən yox,
yalqızlığımın kölgəsi qarşıladı...

### GÜNƏŞİN BOŞ QALAN YERİ...

heç bilirsən nə deməkdi sənsizlik,
addım-addım ölçməkdi gecənin boyunu,
əllərimin kölgəsində siqaretin külünü
üfürməkdi hələ bircə söz düşməmiş
vərəqdən...
bir siqaretin oduna o birini yandırmaqdı,
başdan-ayağa zəhərdi,
ismin olmayan yiyəsizlik halıdı sənsizlik...
vağzallarında ümidlərin öldüyü şəhərdi,
səhərlər kafe pəncərəsində ağaran
güllələnmiş günəşin son halıdı sənsizlik...
bir də
üfüqlərdə günəşin boş qalan yeridi
sən... siz... lik...

### PAYIZA MÜQƏDDİMƏ

Bir də belə sevgi yaşamaz dünya,
gözlərinin yaşı sel olub axmaz.
Bir isti yaratək açılar səhər,
yetim laylaları ovudan olmaz.
Bir ömür boyunca sənin yoluna
bir də mənim kimi boylanan olmaz.
Daha gözlərini çək bu yollardan,
üfüqdə Günəşi haylayan olmaz.
Bətnində nəsə var, yerikləyərsən
dəymәmiş alçatək turş bir ümidə.
Sonra anlayarsan, sonra bilərsən,
mələklər bənd almaz heç zaman yerdə.
Qıvrılıb saçında yatar küləklər,
ulduzlar gözündə sönər bir axşam.
Adım da buz kimi donar dilində,
elə bil dünyada mən olmamışam.
Bir gün deyərlər ki, o, yoxdu daha,
ürəyin məktubtək düşər əlindən.
“bağışla” kəlməsi uçar havada
budağından qopan sarı yarpaqtək,
ürəyin məktubtək düşər əlindən...

### QUM SAATI QADIN

Xəyalında bir qadın yaradacaqsan,
o, təkcə sənin olacaq,
dovşan yuvasıtək
için qorxudan titrəməyəcək,
ölüm və ayrılıq
onun izinə düşə bilməyəcək,
o qadın qum saatı kimi
gözlərindən ürəyinə axacaq,
gözlərin cəmi bir dəfə boşalacaq;
o qadın içinə dolanda...
yaddaşında təbəssümündən başqa
heç nəyi qalmayan qadınlardan deyil o,
əlləri çinar yarpağı kimi sərin,
saçları söyüdlər kimi pərişandı,
səndən uzaqlarda bir qadın var,
o qadın xəyalındakı qadını əvəz edə bilərdi,
onun qorxuları sərhəd dirəkləritək
kəsib yolunu,
sənin yaşadığın şəhərdə
Ay gecələr yuxusuz qalanların gözləridi,
kişilər xəyallarındakı qadınlarla
yatır hər gecə,
səhər açılınca darıxmaq növbəsi
sevgisiz bədənlərə yük olan çarpayıla-
rındı,
qırışmış döşəkağı vəhşi kimi darıxma-
ğın şəklidi,
beynindəki fikirlərin ağırlığından
əzilmiş balıncın xəyalındakı qadının
yarpaq kimi yüngül əllərinin
sığalına möhtacdı,
hər gecə sənin sərxoşluğunu yamsılayır
dağınıq çarpayın,
adyal bədəninə sarınıb kəndir kimi səni
sıxır,
hanı, deyir, sənin sevgi payın...
içində darıxmağın
istifadə müddəti bitib,
istəyərdin elə qısa bir ömür yaşayasan ki,
darıxmağa macalın olmasın,
xəyalındakı qadının
həyatındakı qadına çevrilmək ehtimalı
sıfıra bərabərdisə,
sən bir də heç vaxt darıxmayacaqsan...

### BOŞALMIŞ ƏTİR ŞÜŞƏSİ

Bu sevgi səndə yaşadı,
məndə qocaldı,
bu külək səndə başladı,
məndə səngidi...
mən dizəcən sükuta batmış
yorğun yolçuyam,
bütün səslər bərkiyib,
daşa dönüb qulağımda,
səssiz film kimi
seyr edirəm həyatı,
üstümə səpdiyim ətir kimi
çəkilib gedirsən,
boşalmış ətir şüşəsi kimidi
indi bu sevgi,
sındırıb damarlarımı doğramağa
yarıyır ancaq...
* * *
hava o qədər sakitdi ki,
söykənmək istəyirsən ona,
Tanrının qamçısı kimi
kürəyinə dəyən ağrıları
ovutmaq istəyirsən,
səni qarabaqara izləyən
ölümün üstünə üfürmək üçün
qəzəb körüyünün
təzə oksigenə ehtiyacı var...
hava o qədər sakitdi ki,
zaman bir anlıq dayanıb
nəfəsini dərir sanki...
pəncərəmdə ucu görünən ağacı
əlfəcin kimi həyat adlı kitabın
arasına qoyuram,
hadisələrin axarı
yaxşılığa doğru getmir hələ ki,
hava o qədər sakitdi ki...



■ Kənan Hacı

